# AZƏRBAYCAN RESPUBLİKASININ

# AUDİTORLAR PALATASI

# “Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə

# Təlimat

**(Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2025-ci il 24 yanvar tarixli 373/1 nömrəli qərarı ilə bəyənilmişdir)**


**Tərtib etdi:**

**Sədrin elmi-metodik məsələlər üzrə müşaviri** **Nəcəf Talıbov**



**Bakı – 2025**

**“Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin (beynəlxalq müstəqillik standartları ilə birlikdə) tətbiqi üzrə Təlimat**

Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası (IESBA) öz səlahiyyətləri çərçivəsində *“Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsini (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)”* (“Məcəllə”) işləyib hazırlayır və dərc edir. Məcəllə bütün dünyada peşəkar mühasiblər tərəfindən istifadə üçün nəzərdə tutulur.

Məcəllənin məqsədi

1. “Peşəkar mühasiblərin (IESBA terminalogiyasına əsasən " Peşəkar mühasiblər" ifadəsi mühasibləri və auditorları əhatə edir) beynəlxalq etika məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə)” (“Məcəllə”) bu peşənin ictimai maraqlar üzrə məsuliyyətini əks etdirərək, peşəkar mühasiblər üçün etikanın təməl prinsiplərini müəyyən edir. Bu prinsiplər peşəkar mühasibdən gözlənilən davranış standartlarını özündə ehtiva edir. Təməl prinsiplərinə tamlıq, obyektivlik, peşəkar səriştə və yetərli diqqət, məxfilik və peşəkar davranış daxildir. Müstəqillik prinsipi auditorlara aid olmaqla Beynəlxalq Müstəqillik Standartları ilə müəyyən edilir.
2. Məcəllə peşəkar mühasibdən təməl prinsiplərinə riayət etməmə ilə əlaqəli təhlükələrin müəyyən edilməsi, qiymətləndirilməsi və onları aradan qaldırmaq üçün müvafiq tədbirlərin görülməsi üçün tətbiq edilməsi tələb olunan konseptual əsasları müəyyən edir. Məcəllə mühasiblərə konseptual əsasları müxtəlif mövzulara tətbiq etməyə kömək etmək üçün həmin mövzular üzrə tələbləri və tətbiqi materialları özündə ehtiva edir.
3. Məcəllə auditlər, təhlil və digər təminat tapşırıqları ilə əlaqəli bu tapşırıqlarla bağlı müstəqillik təhlükələri üzrə konseptual əsasları tətbiq etməklə müəyyən edilmiş Beynəlxalq Müstəqillik Standartlarını müəyyən edir.

Məcəllənin strukturu

4. Məcəllə aşağıdakı materialları ehtiva edir:
    - 1-ci hissə – Məcəlləyə, təməl prinsiplərinə və konseptual əsaslara riayətetmə. Bu hissə təməl prinsipləri və konseptual əsasları əhatə edir və bütün peşəkar mühasiblərə şamil olunur.

    - 2-ci hissə – *Biznes sahəsində çalışan peşəkar mühasiblər.* Bu hissədə biznes sahəsində çalışan peşəkar mühasiblər üçün peşəkar fəaliyyətlərini həyata keçirərkən onlara aid olan əlavə materiallar müəyyən edilir. Aşağıdakı biznes sahələrində çalışan peşəkar mühasiblərə icraçı və ya qeyri-icraçı kimi işə götürülmüş, cəlb edilmiş və ya podratçi qismində cəlb edilmiş peşəkar mühasiblər daxildir. Məsələn:
        - Ticarət, sənaye və ya xidmət.
        - İctimai sektor.
        - Təhsil.
        - Qeyri-kommersiya sektoru.
        - Tənzimləyici orqanlar və ya peşəkar qurumlar.

      2-ci hissə şirkət ilə podratçı, işçi və ya sahibkar qismində əməkdaşlıq edərək peşəkar fəaliyyətlə məşğul olan ictimai sektorda çalışan peşəkar mühasiblərə də şamil olunur.

- 3-cü hissə – *İctimai sektorda çalışan peşəkar mühasiblər*. Bu hissədə peşəkar xidmətlər göstərən zaman ictimai sektorda çalışan peşəkar mühasiblərə şamil olunan əlavə materiallar müəyyən edilir.

- *Beynəlxalq Müstəqillik Standartları*. Bu standartlarda təminat xidmətləri göstərən zaman ictimai sektorda çalışan peşəkar mühasiblərə şamil olunan əlavə materiallar aşağıdakı kimi müəyyən edilir:
    - 4A hissəsi –*Audit və təhlil tapşırıqlarında müstəqillik*, audit və ya təhlil tapşırıqları yerinə yetirilən zaman tətbiq edilir.
    - 4B hissəsi – *Audit və təhlil tapşırığı olmayan təminat tapşırıqlarında müstəqillik*, audit və ya təhlil tapşırığı olmayan təminat tapşırıqları yerinə yetirilən zaman tətbiq edilir.
- *Terminlər lüğəti,* müəyyən edilmiş terminləri (zəruri hallarda əlavə izahatlarla birlikdə) və Məcəllənin müəyyən hissələrində xüsusi məna kəsb edən təsvir edilmiş terminləri ehtiva edir. Məsələn, *Terminlər lüğətində* qeyd olunduğu kimi, 4A hissəsində "audit tapşırığı" termini həm audit, həm də təhlil tapşırıqlarına eyni dərəcədə tətbiq edilir. *Terminlər lüğətində* həmçinin Məcəllədə və Məcəllənin istinad etdiyi digər standartlarda istifadə olunan ixtisarların siyahıları təqdim edilir.

5. Məcəllə xüsusi mövzuları əhatə edən bölmələrdən ibarətdir. Bəzi bölmələr həmin mövzuların xüsusiyyətlərini əhatə edən altbölmələrdən ibarətdir. Məcəllənin hər bir bölməsinin strukturu, müvafiq hallarda, aşağıdakı kimidir:
    - Giriş – bölmədə nəzərdən keçirilən predmeti müəyyən edir və konseptual əsaslar kontekstində tələbləri və tətbiqetmə materiallarını təqdim edir. Giriş materialları hər bir hissənin və onun bölmələrinin başa düşülməsi və tətbiq edilməsi üçün vacib olan məlumat, o cümlədən istifadə olunan terminlərin izahını ehtiva edir.

    - Tələblər – predmetlə bağlı ümumi və xüsusi öhdəlikləri müəyyən edir.

    - Tətbiqetmə materialları - tələblərə riayət etməni asanlaşdırmaq üçün kontekst, izahatlar, görüləcək tədbirlər və ya nəzərə alınacaq məsələlər üçün təkliflər, şəkil və digər təlimatlar təqdim edir.

**Məcəllədən istifadə qaydası**

*Təməl prinsipləri, müstəqillik və konseptual əsaslar*

6. Məcəllənin tələbinə əsasən, peşəkar mühasib etikanın təməl prinsiplərinə riayət etməlidir. Bundan əlavə, onlardan təməl prinsiplərinə riayət etməmə təhdidlərini və təhlükələrini müəyyən etmək, qiymətləndirmək və onlar ilə bağlı tədbir görmək üçün konseptual əsasları tətbiq etmələri tələb olunur. Konseptual əsasları tətbiq etmək üçün hər şeylə maraqlanmaq, peşəkar mühakimə yürütmək, məntiqli və məlumatlı üçüncü tərəfin təhlilindən istifadə edilməlidir.
7. Konseptual əsaslar nəzərə alır ki, peşə, qanunvericilik, nizamnamə, şirkət və ya işəgötürən şirkət tərəfindən müəyyən edilmiş qaydalar, siyasət və prosedurların mövcudluğu təhlükələrin müəyyən edilməsinə imkan yaradır. Bu şərait, siyasət və prosedurlar həmçinin peşəkar mühasibin təhlükənin məqbul səviyyədə olub-olmaması ilə bağlı qiymətləndirməsində müvafiq amil ola bilər. Konseptual əsaslara

uyğun olaraq, təhlükələr məqbul səviyyədə olmadıqda, mühasib həmin təhlükələri aradan qaldırmalıdır. Ehtiyat tədbirlərinin həyata keçirilməsi təhlükələri aradan qaldıra bilər. Ehtiyat tədbirləri təhlükələri məqbul səviyyəyə qədər effektiv şəkildə azaltmaq üçün mühasibin həyata keçirdiyi fərdi və ya birgə tədbirlərdir.

8. Məcəllənin tələblərinə əsasən, audit, təhlil və digər təminat tapşırıqlarını yerinə yetirərkən peşəkar mühasiblər müstəqil olmalıdırlar. Konseptual əsaslar, təməl prinsiplərinə riayət etməmə təhlükələrinin müəyyən edilməsi, qiymətləndirilməsi və aradan qaldırılmasına müstəqillik ilə bağlı təhlükələrlə eyni qaydada tətbiq edilir.
9. Məcəlləyə riayət etmə aşağıdakıların tətbiq edilməsini, həmçinin, aşağıdakılar haqqında bilik və təsəvvürün olmasını tələb edir:
    - 1-ci hissənin çərçivəsində müvafiq hallarda 200, 300, 400 və 900-cü bölmələrdə göstərilən əlavə materiallarla birlikdə müəyyən bölmənin bütün müvafiq müddəaları barədə.
    - Müəyyən bölmənin bütün müvafiq müddəaları, məsələn, "Ümumi" və "Bütün audit sifarişçiləri" başlığı ilə altbölmələrdə qeyd olunmuş müddəaların tətbiqi (əlavə müddəalar, o cümlədən "İctimai maraq subyektləri olmayan audit sifarişçiləri" və ya "İctimai maraq subyektləri olan audit sifarişçiləri" adlı bölmələrdə verilən müddəalarla birlikdə) barədə.
    - Müəyyən bölmədə təqdim edilən bütün müvafiq müddəalar (müvafiq altbölmədə təqdim edilən əlavə müddəalarla birlikdə) barədə.

*Tələblər və tətbiqetmə materialları*

10. Tələblər və tətbiqetmə materialları təməl prinsiplərinə riayət etmək, konseptual əsasları tətbiq etmək və audit, təhlil və digər təminat tapşırıqlarını yerinə yetirərkən müstəqil olmaq məqsədi ilə icraya qəbul edilməli və tətbiq edilməlidir.

Tələblər

11. Tələblər "T" hərfi ilə işarələnir və əksər hallarda "olmalıdır" sözü ilə ifadə edilir. Məcəllədə istifadə edilən "olmalıdır" sözü peşəkar mühasibin və ya şirkətin üzərinə "olmalıdır" sözünün istifadə edildiyi xüsusi müddəalara riayət etmək öhdəliyini qoyur.
12. Bəzi hallarda, Məcəllədə tələblərlə bağlı xüsusi istisnalar nəzərdə tutulur. Bu cür hallarda müddəa "T" hərfi ilə işarələnir, lakin "bilər" və ya şərti ifadələrdən istifadə edilir.
13. Məcəllədə "bilər" sözü istifadə edildikdə, bu, müəyyən şəraitdə, o cümlədən tələbdən istisna olmaqla, müəyyən tədbirin görülməsi üçün icazənin verilməsini bildirir. Bu söz mümkünlüyü ifadə etmək üçün istifadə edilmir.
14. Məcəllədə "ola bilər" sözü istifadə edildikdə, o, məsələnin yaranması, hadisənin bas verməsi və ya tədbirin görülməsinin mümkünlüyünü bildirir. Bu termin təhlükə ilə birlikdə istifadə edildikdə mümkünlük və ya ehtimal səviyyəsini ifadə etmir, çünki təhlükə səviyyəsinin qiymətləndirilməsi müəyyən məsələnin, hadisənin və ya tədbirlə bağlı faktlardan və şəraitlərdən asılıdır.

Tətbiqetmə materialları

15. Tələblərdən əlavə, Məcəlləyə onun düzgün başa düşülməsi üçün müvafiq konteksti təmin edən tətbiqetmə materialları daxil edilmişdir. Xüsusən, tətbiqetmə materialları peşəkar mühasibə müəyyən şəraitlərdə konseptual əsasları necə tətbiq edəcəyini anlamaqda və xüsusi tələbi başa düşmək və ona riayət etməkdə kömək etmək məqsədi daşıyır. Bu cür tətbiqetmə materialları özlüyündə tələb nəzərdə tutmur,

lakin materialın nəzərdən keçirilməsi Məcəllənin tələblərinin, o cümlədən konseptual əsasların uyğun qaydada tətbiq edilməsi üçün zəruridir. Tətbiqetmə materialları “TM” hərfləri ilə işarələnir.

16. Tətbiqetmə materiallarına nümunələr siyahıları daxil olduğu hallarda, bu siyahıların tam olması nəzərdə tutulmur.

## MƏCƏLLƏNİN 2022-ci İL NƏŞRİNDƏ EDİLƏN DƏYİŞİKLİKLƏR

Bu məlumat kitabçası *“Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsi üzrə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) məlumat kitabçası”* 2022-ci il nəşrini əvəz edir və 2023-cü ilin dekabr ayında qüvvəyə minəcək aşağıdakı düzəlişləri ehtiva edir:

- “Tapşırıq qrupu” və “qrup auditi” anlayışı ilə bağlı düzəlişlər. Düzəlişlər IAASB-nin Beynəlxalq Audit Standartlarında (BAS) və Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartlarında (BKİS) eyni terminin anlayışına edilən dəyişikliklərə uyğunlaşdırmaq üçün Məcəllədə “tapşırıq qrupu” anlayışına edilmiş dəyişikliklərin müstəqilliyinə və digər nəticələrinə aiddir. Düzəlişlər həmçinin qrupun maliyyə hesabatlarının auditində müstəqillik ilə bağlı müxtəlif mülahizələri hərtərəfli əhatə edir.

  “Tapşırıq qrupu” və “qrup auditi” anlayışı ilə bağlı düzəliş edilmiş müddəalar maliyyə hesabatlarının auditi və qrup auditi üçün aşağıdakı kimi qüvvəyə minir:

  - “Tapşırıq qrupu” anlayışında düzəlişlər ilə bağlı 400-cü bölmədə edilən dəyişikliklər və qrup auditi ilə bağlı 405-ci bölməyə daxil edilən yeni müddəalar 15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili, həmçinin qrup maliyyə hesabatlarının auditi üçün qüvvəyə minir.
  - Aşağıdakı müvafiq və ardıcıl düzəlişlər 15 dekabr 2023-cü il tarixindən etibarən qüvvəyə minir:
    - 600 saylı (düzəliş edilmiş) BAS-dakı terminologiyaya uyğunlaşdırmaq üçün 360-cı bölməyə edilən müvafiq düzəlişlər.
    - 400-cü bölmədə yenidən baxılmış qeyri-əminlik xidmətləri ilə bağlı müddəalara edilən müvafiq düzəlişlər.
    - “Tapşırıq qrupu” anlayışının yenidən baxılması nəticəsində 300, 310, 320, 400, 510, 605 və 900-cu bölməyə edilən müvafiq düzəlişlər.
    - 540, 800, 940 və 990-cu bölməyə keyfiyyətin idarə edilməsi ilə bağlı edilən ardıcıl düzəlişlər.
  - Terminlər lüğətində edilən dəyişikliklər aşağıdakı kimi qüvvəyə minir:
    - maliyyə hesabatlarının 15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrləri üzrə maliyyə hesabatlarının auditi və təhlili, həmçinin qrup maliyyə hesabatlarının auditi üçün;
    - 15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrləri əhatə edən əsas predmet ilə bağlı audit və təhlil tapşırıqları olmayan təminat tapşırıqları üçün; əks təqdirdə, 15 dekabr 2023-cü il tarixindən etibarən.

  Düzəlişlərin erkən qəbul edilməsinə icazə verilir.

  Dəyişikliklər 2023-cü ilin fevral ayında IESBA-nın saytında dərc edilmişdir.

**Heyətin audit sifarişçisi ilə uzunmüddətli birliyini əhatə edən “Yurisdiksiya müddəasının” qüvvədən düşmə vaxtının yaxınlaşması**

- Heyətin audit sifarişçisi ilə uzunmüddətli birliyini əhatə edən R540.20 bəndi

("yurisdiksiya müddəası") 15 dekabr 2023-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün artıq qüvvədə deyil. Yurisdiksiya müddəasına əsasən, qanunverici və ya tənzimləyici orqan (və ya belə qanunvericilik və ya tənzimləyici orqan tərəfindən səlahiyyət verilmiş və ya tanınmış təşkilat) tapşırıq üzrə tərəfdaş üçün ardıcıl beş ildən az olan gözləmə müddəti müəyyən etdiyi hallarda, minimal müddət üç il olmaqla daha qısa gözləmə müddəti tətbiq edilə bilər, bu şərtlə ki, ümumi iş müddəti yeddi ildən çox olmasın.

**Qüvvəyə minməmiş təsdiqlənmiş dəyişikliklər**

Məlumat kitabçasının 2023-cü il nəşrinə aşağıdakılar daxildir:

- Düzəliş edilmiş "ictimai maraq subyekti (İMS)" anlayışı, digər məsələlərlə yanaşı, "listinq subyekti olan müəssisə" kateqoriyasını əvəz etmək üçün yeni "səhmləri birjada alınıb-satılan müəssisə" kateqoriyası da daxil olmaqla, İMM kateqoriyalarının daha geniş siyahısını müəyyən edir.

  Düzəliş edilmiş İMM anlayışı və əlaqəli müddəalar 15 dekabr 2024-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi üçün qüvvəyə minəcək. Düzəlişlərin erkən qəbul edilməsinə icazə verilir.

  Dəyişikliklər 2022-ci ilin aprel ayında IESBA-nın saytında dərc edilmişdir.

  - "Listinq subyekti olan müəssisə" və "ictimai maraq subyekti" anlayışlarına edilən təsdiqlənmiş düzəlişlərdən irəli gələn terminlər lüğətindəki "audit sifarişçisi" və "qrup auditinin sifarişçisi" anlayışlarına edilən dəyişikliklər 15 dekabr 2024-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının və qrup maliyyə hesabatlarının auditi üçün qüvvəyə minəcək.

- Məcəlləyə texnologiyalar ilə bağlı edilən düzəlişlər.

  Texnologiyalar ilə bağlı 1-3-cü hissələrə edilən düzəlişlər 15 dekabr 2024-cü il tarixindən etibarən qüvvəyə minəcək.

  Texnologiyalar ilə bağlı 4A hissəsinə edilən düzəlişlər 15 dekabr 2024-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üzrə maliyyə hesabatlarının auditi və təhlili üçün qüvvəyə minəcək.

  Dövrləri əhatə edən əsas mövzularla bağlı təminat tapşırıqlarına dair texnologiyalar ilə əlaqəli 4B Hissəsinə edilən müvafiq və ardıcıl düzəlişlər 15 dekabr 2024-cü il tarixindən tez olmayaraq başlayan dövrlər üçün qüvvəyə minəcək; əks təqdirdə, bu düzəlişlər 15 dekabr 2024-cü il tarixindən etibarən qüvvəyə minəcək.

  Düzəlişlərin erkən qəbul edilməsinə icazə verilir.

  Dəyişikliklər 2023-cü ilin aprel ayında IESBA-nın saytında dərc edilmişdir.

2024-cü ildə qüvvəyə minən dəyişikliklər 2024-cü ildə elektron beynəlxalq standartlar (eIS) platformasında öz əksini tapır.

**2023-cü ilin aprel ayından sonra dərc edilmiş Məcəlləyə edilmiş dəyişikliklər və ilkin sənədlər**

Son yeniliklər haqqında məlumat və 2023-cü ilin aprel ayından sonra dərc edilmiş yekun bəyanatları və ya köhnə ilkin sənədləri əldə etmək üçün IESBA-nın www.ethicsboard.org internet saytına verilmişdir.